RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 29 (8622) ÇƏRŞƏNBƏ AXŞAMI, 9 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qarşıdakı 10 ildə innovasiyalara geniş meydan veriləcək

Son bir ildə koronavirus pandemiyası dünya iqtisadiyyatına misligörünməmiş zərbələr endirdi. İnfeksiyanın ildırım sürəti ilə yayılması nəticəsində kütləvi karantin qaydaları tətbiq edildi, sərhədlər bağlandı, yollar iflic vəziyyətinə düşdü, biznesin çoxsaylı sahələri fəaliyyətini dondurmaq və ya məhdudlaşdırmaq məcburiyyəti qarşısında qaldı. Nəticədə qlobal borclar artdı, neftin qiyməti kəskin surətdə azaldı.

Bu, heç də baş verən iqtisadi silkələnmələrin və sarsıntıların tam siyahısı deyil. Beynəlxalq Maliyyə İnistitutunun hesablamalarına görə, yalnız ötən ilin yanvarından oktyabrına kimi qlobal borc 15 trilyon artaraq 272 trilyonu keçmişdir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına əsasən, 2020-ci ildəki pandemiya səbəbindən qlobal dünya iqtisadiyyatı qarşıdakı 4 ildə də az vəsait itirməyəcək.

Belə vəziyyətdə hər bir ölkə pandemiya böhranından çıxmaq üçün yollar axtarır. Belə bir deyim var: "Ən gözəl müdafiə hücumdur". Bu baxımdan Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" həm postpandemiya və postmüharibə dövrünün çətinliklərindən çıxmağa, həm də iqtisadi islahatların yeni mərhələsinə keçidi elan etməyə, daha yüksək nəticələri hədəfə almağa imkan verir.

Qarşıdakı 10 ildə yüksək texnologiyaların geniş tətbiqinə hesablanan prioritetlər mahiyyət etibarı ilə təkcə postpandemiya itkilərindən yaxa qurtarmağa yox, bütün sahələrdə yüksək texnologiyaların tətbiqinə keçməyə də xidmət edir.

Biz bu gün elə sürətlə inkişaf etməliyik ki, işğalçı qonşumuz bundan sonra da başını qaldırıb bizim sərhədə baxmağa belə ürək etməsin. Məhz buna görə dövlət başçısının yüksək texnologiyalara keçidə qərar verməsi günün tələbləri ilə uzlaşan ən doğru qərardır. Bu baxımdan Azərbaycan Prezidentinin beynəlxalq arenada daha çevik addımlar atması, daha sərt bəyanatlar verməsi, daxili siyasətdə isə konstruktiv mövqe sərgiləməsi təsadüfi deyil. Bütün bunlar onu göstərir ki, ölkəmiz yaxın 10 il ərzində daha sürətlə inkişaf edərək dünya düzənində bütün sahələr üzrə qalib mövqeyini daha da möhkəmləndirəcək.

## Bu, Milli Prioritetlərdə önə çəkilən vacib istiqamətlərdən biridir

Bu prosesdə sıravi vətəndaşların islahatların yeni erasında nə dərəcədə fəal olacağı da önəmlidir. Axı, yeni texnologiyaların tətbiqi hər birimizdən yüksək biliklərin və kreativ düşüncə tərzinin nümayişini, eləcə də yeni biznes ideyalarının, yeni kəşflərin gündəmə gətirilməsini tələb edir. Biz həmçinin geridə qalan düşüncə və həyat tərzindən, dəyərdən düşən, köhnəlmiş biznes ideyalarından imtina etməliyik.

Prioritetlərdə özəl mülkiyyət institutlarının gücləndirilməsinin, özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsinin zəruri olduğu göstərilir. Bu o deməkdir ki, növbəti 10 ildə daha yüksək əlavə dəyər yaradan sahələrə üstünlük veriləcək. Təsadüfi deyil ki, bu dövrdə sanballı sosial-iqtisadi inkişafa nail olmaq üçün 5 milli prioritetin reallaşdırılması nəzərdə tutulur. Bu sırada dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət qurmaq, dünyada artan rəqabətə hazır olmaq üçün yüksəkrəqabətli insan kapitalını formalaşdırmaq da xüsusi önəm daşıyır. Yeni tələblər ciddiləşir, XXI əsrin ruhuna uyğun təhsilin, yaradıcı və innovativ cəmiyyətin sürətlə qurulması gündəmə gəlir. Deməli, hər bir kəs öz üzərində işləməli, biliklərini artırmalı, daha keyfiyyətli təhsilə yiyələnməlidir. Sənəddə deyildiyi kimi: "Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır".

Bundan əlavə, Milli Prioritetlərdə yaradıcı və innovativ cəmiyyətin qurulması da önə çəkilir: "Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır".

Dövlət başçısı artıq bir neçə dəfə çıxışlarında Azərbaycanın yüksək texnologiyaları tətbiq və ixrac edən ölkəyə çevrilməsini bir tələb kimi qarşıya qoymuşdur. Prioritetlərdə də göstərilir ki, dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır.

Beləliklə, qarşıdakı 10 il ərzində bütün dövlət qurumlarından və hər bir vətəndaşdan maksimum fəallıq tələb olunur. Elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı Azərbaycanı dünyanın ən müasir ölkələrindən birinə çevirməlidir.

*"Azərbaycan"*

# Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır



Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.

Qeyd edək ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə dövlət başçısının 2020-ci il 10 iyun tarixli sərəncamına əsasən, Baş Prokurorluğun yeni strukturu təsdiq edilib, yeni idarə və şöbələr, o cümlədən islahatların tərkib hissəsi kimi, kriminalistika və informatika idarəsi yaradılıb.

Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirdi ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub. Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.

Diqqətə çatdırıldı ki, cinayət prosesi iştirakçılarının dindirilməsi üçün müasir tələblərə cavab verən 13 dindirmə otağında zəruri texniki vasitələr qoyulub. Eyni zamanda cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq, tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı yaradılıb. Kriminalistika otağı da ən müasir cihaz və avadanlıqla təmin olunub. İnzibati binada üç iclas zalı və 320 nəfərlik konfrans zalı müxtəlif beynəlxalq tədbirlərin, treninq, seminar, mətbuat konfransları və təqdimatların keçirilməsinə imkan verəcək.

*Ardı 2-ci səh.*

**◆ VI çağırış Milli Məclisə seçkilərdən bir il ötür**

# Zamanın tələbi olan islahatlar

## Milli Məclis ötən bir ildə İlham Əliyevin inkişaf kursuna layiqli töhfələr verib

Bir il öncə, fevralın 9-da Azərbaycanda VI çağırış parlamentə növbədənkənar seçkilər keçirildi. Bu seçkilər Prezident İlham Əliyevin davamlı inkişafa yönəlmiş islahatlarının tərkib hissəsi idi. Təbii ki, Milli Məclisdə də islahatlar aparılmalı və parlament qanunvericilik fəaliyyətini Prezidentin islahatlarının ruhuna uyğun qurmalıydı.

Görəsən, bir il ərzində ali qanunverici orqan gözləntiləri doğrultdumu?

Qəzetimizə açıqlamalarında Milli Məclisin deputatları bununla bağlı fikirlərini bildirdilər.

*Ardı 4-cü səh.*



## Y.Y.Axund-zadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda musiqi sənətinin inkişafında xidmətlərinə görə Yusif Yevgenyeviç Axund-zadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2021-ci il*

# Qarabağın iki beynəlxalq hava limanı Azərbaycanın nəqliyyat infrastrukturunu daha da zənginləşdirəcək

## Onların biri Füzulidə inşa edilir, digərinin yeri aprel ayında müəyyən olunacaq

Füzuli Beynəlxalq Hava Limanının tikintisi işğaldan azad edilmiş ərazilərdə, ilk növbədə, start götürmüş layihələrdən biridir.

Aeroportun inşasının baş podratçısı olan "AzVirt" şirkətinin məlumatına görə, hazırda ərazidə minalardan təmizlənmə işləri gedir. Bu işlər yekunlaşandan sonra tikinti prosesi sürətlənəcək. Qarşıdan gələn yaz aylarında iş fasiləsiz, gecəli-gündüzlü aparılacaq.

Füzuli rayonunda Beynəlxalq Hava Limanının təməlini bu il yanvarın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qoymuşlar. Təməlqoyma zamanı dövlət başçısı sözügedən hava limanının əhəmiyyətini vurğulayaraq demişdir: "Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".



*Ardı 5-ci səh.*

# 65 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılıb

2020-ci ilin 11 martından pandemiya elan edilən COVID-19 qarşısıalınmaz sürətlə yayılır. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına əsasən, dünyada son sutka ərzində 432 mindən çox insan bu təhlükəli virusa yoluxub. Beləliklə, dünya üzrə ümumilikdə yoluxanların sayı 106 milyonu ötüb, 2 milyondan çox şəxs isə həyatını itirib.

ÜST mütəxəssisləri yeni koronavirusun mənşəyini öyrənmək üçün yanvarın 14-də Çinin Uhan şəhərinə yollanıblar. Onlar koronavirusun ilk yayıldığı bildirilən Uhan şəhərindəki dəniz məhsulları satılan bazarda məlumatlar toplayıblar. Zooloq Peter Daszak bildirib ki, infeksiyanın yayılmasında göstərilən bazarın rolu barədə əllərində "mühüm dəlillər" var, nəticə barədə məlumat fevralın 10-dək açıqlanacaq.

Digər tərəfdən iki aya yaxındır ki, dünyanın bir çox ölkəsində koronavirusdan birdəfəlik can qurtarmaq üçün vaksinasiya prosesinə start verilib. Azərbaycanda vaksinasiya prosesinə yanvarın 18-dən tibb işçilərinin peyvəndləməsi ilə başlanılıb.

*Ardı 6-cı səh.*

# Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır









*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılan və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış oldu. Qalereyada Vətən müharibəsi dövründə Ermənistan ordusunun Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə və obyektlərə qarşı törətdiyi terror aktları ilə bağlı prokurorluq tərəfindən istintaq olunan cinayət işləri üzrə əldə edilmiş maddi sübutlar toplanıb.

Dövlət başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verildi. Bildirildi ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salınmadan






1,5-2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür. Müasir texnika və avadanlıqla təchiz edilən bu cür avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.

Kompleksin ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır. Prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması bu istiqamətdə həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.

# Milli Məclisin sədri Böyük Britaniyanın dövlət naziri ilə görüşüb

Fevralın 8-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Böyük Britaniyanın dövlət naziri xanım Vendi Morton ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, spiker qonağı salamlayaraq Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi Böyük Britaniya ilə siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu bildirib.

Sədr diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin İngiltərəyə səfərləri münasibətlərimizin inkişafına böyük töhfələr verib. Böyük Britaniyanın da yüksəksəviyyəli nümayəndə heyətləri dəfələrlə Azərbaycanda səfərdə olublar. Bu səfərlər zamanı Azərbaycan Respublikası ilə Birləşmiş Krallıq arasında ikitərəfli münasibətlərə dair bir sıra sənədlər imzalanıb. İstərdik ki, parlamentlər səviyyəsində də intensiv qarşılıqlı səfərlər həyata keçirilsin.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, siyasi münasibətlərimizin yüksək səviyyədə olması iqtisadi münasibətlərimizə də öz təsirini göstərib. Bu gün ölkələrimiz neft-qaz sənayesi sahəsində uğurla əməkdaşlıq edir. O cümlədən Britaniyanın BP şirkətinin Azərbaycanda fəaliyyəti geniş ictimaiyyətə yaxşı məlumdur.



Səmimi qəbul üçün minnətdarlığını bildirən Böyük Britaniyanın dövlət naziri Azərbaycana ilk səfəri ilə bağlı təəssüratlarını bölüşüb. Qonaq Azərbaycanda keçirdiyi görüşləri, apardığı müzakirələri yüksək dəyərləndirib.

Vendi Morton Azərbaycanda məişət zorakılığının qarşısının alınması və gender məsələləri ilə bağlı görülən işləri yüksək qiymətləndirərək parlamentin bu sahənin hüquqi bazasının təkmilləşdirilməsində böyük rol oynadığını bildirib. Sahibə Qafarova ölkəmizdə gender məsələlərinə xüsusi diqqət göstərildiyini qeyd edərək bildirib ki, hələ 1918-ci ildə müsəlman Şərqində ilk olaraq Azərbaycanda qadınlara seçki hüququ verilib. Sovet dövründə də bu məsələlər ovaxtkı Konstitusiya ilə tənzimlənib, kişi-qadın bərabərliyi təmin olunub.

Ölkəmiz 1991-ci ildə ikinci dəfə müstəqillik qazandıqdan sonra gender məsələləri ilə yaxından məşğul olmaq üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Hazırda Azərbaycanda qadınlar həyatın müxtəlif sahələrində, dövlət idarəetməsində, parlamentdə təmsil olunurlar. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva öz genişmiqyaslı fəaliyyəti ilə Azərbaycan qadınlarını ən yüksək səviyyədə təmsil edir və bu məsələlərə böyük diqqət göstərir.

Spiker qeyd edib ki, Milli Məclisdə də ailə və qadın məsələləri ilə məşğul olan xüsusi komitə fəaliyyət göstərir. Parlamentdə bu sahəni tənzimləyən bir sıra qanunlar qəbul edilib. Qadın deputatlarımız gender məsələləri ilə bağlı beynəlxalq tədbirlərdə fəal iştirak edirlər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev, hər iki ölkənin səfirləri Tahir Tağızadə və Ceyms Layl Şarp, həmçinin digər rəsmi şəxslər iştirak ediblər.

# İdarələrarası Mərkəzdə Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovla görüş keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovla görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüş zamanı qurumlararası əlaqələndirmə funksiyasını yerinə yetirən İdarələrarası Mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib, xüsusi nümayəndəliyin vəzifələri və fəaliyyət istiqamətlərinə uyğun olaraq İdarələrarası Mərkəzlə birgə görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Habelə görüşdə dövlət başçısının təşəbbüsü və müvafiq sərəncamı ilə yaradılmış Prezidentin xüsusi nümayəndəsi institutunun işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin sistemli, ardıcıl və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi istiqamətində İdarələrarası Mərkəz və onun nəzdində fəaliyyət göstərən işçi qruplarla qarşılıqlı əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Gələcəkdə Prezidentin xüsusi nümayəndələrinin iştirakı ilə İdarələrarası Mərkəzin müvafiq işçi qruplarının birgə iclaslarının keçirilməsinin zəruriliyi də vurğulanıb.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"ndə, 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"ndə, 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"ndə və 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1368; 2017, № 7, maddə 1372; 2020, № 2, maddə 107, № 7, maddə 868) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil haqqında dövlət sənədlərini və təhsilə dair digər sənədləri vermək;";

1.2. 8.15-ci bənd üzrə:

1.2.1. 8.15.1-ci yarımbəndə "proqramlarının" sözündən sonra "(kurikulumların)" sözü və "etmək" sözündən sonra ", keyfiyyətli təhsil vermək" sözləri əlavə edilsin;

1.2.2. 8.15.2-ci yarımbənddə "ruhunda tərbiyə etmək" sözləri "və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata" sözləri ilə əvəz edilsin;

1.2.3. 8.15.4-cü yarımbənddən "şəxsi nümunəsi ilə" sözləri çıxarılsın;

1.2.4. 8.15.8-ci yarımbəndə "çəkindirmək" sözündən sonra ", təhsilalanların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək" sözləri əlavə edilsin;

1.2.5. 8.15.9-cu yarımbəndə "aparmaq," sözündən sonra "qabaqcıl pedaqoji təcrübəni, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək," sözləri əlavə edilsin;

1.2.6. 8.15.11-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.15.11. daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;";

1.2.7. aşağıdakı məzmunda 8.15.11-1-ci və 8.15.11-2-ci yarımbəndlər əlavə edilsin:

"8.15.11-1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

8.15.11-2. Akademiyanın rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, təhsilalanların təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;";

1.3. 8.16-cı bənd üzrə:

1.3.1. 8.16.2-ci yarımbəndə "etmək" sözündən sonra ", təkliflər irəli sürmək" sözləri əlavə edilsin;

1.3.2. 8.16.3-cü yarımbəndə "seçmək" sözündən sonra ", tədris-metodik vəsaitlərlə təmin olunmaq" sözləri əlavə edilsin;

1.3.3. 8.16.5-ci yarımbəndə "vəzifə tutmaq" sözlərindən sonra ", seçkili vəzifələrə seçmək və seçilmək" sözləri əlavə edilsin;

1.3.4. aşağıdakı məzmunda 8.16.7-1-ci yarımbənd əlavə edilsin:

"8.16.7-1. qanunlara və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğun olaraq mükafatlandırılmaq və təltif olunmaq;";

1.4. 9.10-cu bənd üzrə:

1.4.1. 9.10.2-ci yarımbənddə "ixtisas üzrə nəzəri" sözləri "dövlət təhsil standartlarına uyğun" sözləri ilə əvəz edilsin;

1.4.2. 9.10.4-cü yarımbənddən "tədris tapşırıqlarını müəyyən edilmiş müddətlərdə yerinə yetirmək," sözləri çıxarılsın;

1.4.3. 9.10.11-ci yarımbənddə "və cəmiyyət" sözləri ",cəmiyyət, ailə və özü" sözləri ilə əvəz edilsin;

1.4.4. aşağıdakı məzmunda 9.10.13-1-ci və 9.10.13-2-ci yarımbəndlər əlavə edilsin:

"9.10.13-1. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

9.10.13-2. sağlam həyat tərzi keçirmək;";

1.5. 9.11-ci bənd üzrə:

1.5.1. 9.11.1-ci yarımbəndə "dövlət" sözündən əvvəl "mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə" sözləri əlavə edilsin;

1.5.2. 9.11.2-ci yarımbəndə "kitabxanalardan" sözündən əvvəl "laboratoriyalardan," sözü əlavə edilsin;

1.5.3. 9.11.4-cü yarımbənddə "sağlamlıq" sözü "həyat və sağlamlığı" sözləri ilə əvəz edilsin;

1.5.4. 9.11.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.11.7. Akademiyanın elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;";

1.5.5. aşağıdakı məzmunda 9.11.8-1 - 9.11.8-4-cü yarımbəndlər əlavə edilsin:

"9.11.8-1. müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

9.11.8-2. şərəf və ləyaqəti aşağılayan fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

9.11.8-3. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələrdə) iştirak etmək;

9.11.8-4. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;";

1.6. 9.19-cu bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada" sözləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan" sözləri ilə əvəz edilsin;

1.7. 9.20-ci və 9.22-ci bəndlərə "təhsil haqqında" sözlərindən əvvəl "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan" sözləri əlavə edilsin;

1.8. 9.24-cü bənddə "dövlət sənədi" sözləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sənəd" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 198; 2019, № 3, maddə 404, № 7, maddə 1230; 2020, № 2, maddə 107, № 5, maddə 698) ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"nin 3.7-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci cümlədə "Universiteti bitirməsi barədə" sözləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi -" sözləri ilə əvəz edilsin;

2.2. dördüncü cümlədə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada" sözləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1795; 2019, № 3, maddə 404) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil haqqında dövlət sənədlərini və təhsilə dair digər sənədləri vermək;";

3.2. 9.19-cu bənddə "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada və formada" sözləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan" sözləri ilə əvəz edilsin;

3.3. 9.20-ci bəndə "təhsil haqqında" sözlərindən əvvəl "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan" sözləri əlavə edilsin;

3.4. 9.21-ci bənddə "dövlət sənədi" sözləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sənəd" sözləri ilə əvəz edilsin;

3.5. 10.1-ci bənd üzrə:

3.5.1. 10.1.1-ci yarımbəndə "proqramlarının" sözündən sonra "(kurikulumların)" sözü və "etmək" sözündən sonra ", keyfiyyətli təhsil vermək" sözləri əlavə edilsin;

3.5.2. 10.1.2-ci yarımbəndə "aparmaq" sözündən sonra ", qabaqcıl pedaqoji təcrübəni, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək, əlavə məşğələlər keçirmək" sözləri əlavə edilsin;

3.5.3. 10.1.5-ci yarımbənddən ", Məktəbin daxili qaydalarına əməl etməklə başqalarına şəxsi nümunə olmaq" sözləri çıxarılsın;

3.5.4. 10.1.6-cı yarımbəndə "vətənpərvərlik" sözündən sonra "və azərbaycançılıq" sözləri və "tərbiyə etmək" sözlərindən sonra ", müstəqil həyata" sözləri əlavə edilsin;

3.5.5. 10.1.8-ci yarımbənddən "şəxsi nümunəsi ilə" sözləri çıxarılsın və həmin yarımbəndə "cəmiyyətə" sözündən sonra ", ətraf mühitə" sözləri əlavə edilsin;

3.5.6. 10.1.9-cu yarımbəndə "pedaqoji" sözündən əvvəl "etik davranış qaydalarına," sözləri əlavə edilsin;

3.5.7. 10.1.12-ci yarımbəndə "çəkindirmək" sözündən sonra ", onların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək" sözləri əlavə edilsin;

3.5.8. aşağıdakı məzmunda 10.1.14-1 - 10.1.14-3-cü yarımbəndlər əlavə edilsin:

"10.1.14-1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

10.1.14-2. daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;

10.1.14-3. Məktəbin rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, dəyişən heyətin təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;";

3.6. 10.2-ci bənd üzrə:

3.6.1. 10.2.2-ci yarımbəndə "etmək" sözündən sonra ", təkliflər irəli sürmək" sözləri əlavə edilsin;

3.6.2. 10.2.4-cü yarımbənddən "uyğun olduqda Elmi Şuraya və digər" sözləri çıxarılsın;

3.6.3. 10.2.5-ci yarımbənddə "əlavə təhsil almaq" sözlərindən sonra "və elmi dərəcəsini yüksəltmək" sözləri əlavə edilsin;

3.6.4. aşağıdakı məzmunda 10.2.8-1-ci yarımbənd əlavə edilsin:

"10.2.8-1. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək, tədris-metodik vəsaitlərlə təmin olunmaq;

3.7. 10.4-cü bənd üzrə:

3.7.1. 10.4.2-ci yarımbənddən "tədris tapşırıqlarını vaxtında yerinə yetirmək," sözləri çıxarılsın;

3.7.2. 10.4.4-cü yarımbəndə "əməl etmək" sözlərindən əvvəl ", etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara" sözləri əlavə edilsin;

3.7.3. 10.4.5-ci yarımbənddə "və cəmiyyət" sözləri ", cəmiyyət, ailə və özü" sözləri ilə əvəz edilsin;

3.7.4. aşağıdakı məzmunda 10.4.7-1-ci və 10.4.7-2-ci yarımbəndlər əlavə edilsin:

"10.4.7-1. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

10.4.7-2. sağlam həyat tərzi keçirmək;";

3.8. 10.5-ci bənd üzrə:

3.8.1. 10.5.1-ci yarımbəndə "dövlət" sözündən əvvəl "mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə" sözləri əlavə edilsin;

3.8.2. 10.5.2-ci yarımbəndə "kitabxanalardan" sözündən əvvəl "laboratoriyalardan," sözü əlavə edilsin;

3.8.3. 10.5.3-cü və 10.5.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"10.5.3. şərəf və ləyaqəti aşağılayan fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;";

"10.5.5. Məktəbin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;";

3.8.4. aşağıdakı məzmunda 10.5.6-1 - 10.5.6-5-ci yarımbəndlər əlavə edilsin:

"10.5.6-1. müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

10.5.6-2. həyat və sağlamlığı üçün təhlükəsiz, zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

10.5.6-3. biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

10.5.6-4. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələrdə) iştirak etmək;

10.5.6-5. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1950; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1207 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"nin 1.1-ci bəndində "dövlət təhsil" sözləri "təhsil haqqında dövlət" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253; 2005, № 4, maddə 299; 2008, № 6, maddə 496; 2011, № 7, maddə 655; 2013, № 6, maddə 684; 2017, № 5, maddə 886, № 11, maddə 2071; 2019, № 3, maddə 442, № 3, maddə 448) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bəndin "i" yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"i) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil haqqında dövlət sənədlərini və təhsilə dair digər sənədləri vermək;".

1.2. 5.5-ci bənd üzrə:

1.2.1. "a", "b" və "ç" yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"a) tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək, tədris-metodik vəsaitlərlə təmin olunmaq;

b) Akademiyada vəzifə tutmaq, seçkili vəzifələrə seçmək və seçilmək;";

"ç) Akademiyanın mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, laboratoriyalardan, kitabxanalardan və s.) istifadə etmək;";

1.2.2. "ə" yarımbəndində "etmək" sözündən sonra ", təkliflər irəli sürmək" sözləri əlavə edilsin;

1.2.3. "f" yarımbəndindən "ixtisasını artırmaq," sözləri çıxarılsın;

1.2.4. "g" yarımbəndi "x" yarımbəndi hesab olunsun və aşağıdakı məzmunda "g", "ğ" və "h" yarımbəndləri əlavə edilsin:

"g) normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti ilə, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

ğ) şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

h) qanunlara və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğun olaraq mükafatlandırılmaq və təltif olunmaq;".

1.3. 5.6-cı bənd üzrə:

1.3.1. "a" və "c" yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"a) təhsil proqramlarının (kurikulumların) mənimsənilməsini təmin etmək, keyfiyyətli təhsil vermək;";

"c) ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, qabaqcıl pedaqoji təcrübəni, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək, əlavə məşğələlər keçirmək;";

1.3.2. "g" yarımbəndindən ", habelə Akademiyanın daxili qaydalarına əməl etməklə başqalarına nümunə olmaq" sözləri çıxarılsın;

1.3.3. "ğ" yarımbəndinə "tərbiyə etmək" sözlərindən sonra ", müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq" sözləri əlavə edilsin;

1.3.4. "h" yarımbəndindən "şəxsi nümunəsi ilə" sözləri çıxarılsın;

1.3.5. "x" yarımbəndinə "pedaqoji" sözündən əvvəl "etik davranış qaydalarına," sözləri və "yüksək tutmaq" sözlərindən sonra ", ziyalılıq nümunəsi göstərmək" sözləri əlavə edilsin;

1.3.6. "ı" yarımbəndi "q" yarımbəndi hesab olunsun və aşağıdakı məzmunda "ı", "i", "j" və "k" yarımbəndləri əlavə edilsin:

"ı) təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

i) daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;

j) Akademiyanın rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, təhsilalanların təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;

k) attestasiyadan keçmək;".

1.4. 6.6-cı bənd üzrə:

1.4.1. "a", "c" və "d" yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"a) təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;";

"c) Akademiyanın mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, laboratoriyalardan kitabxanalardan və s.) istifadə etmək;";

"d) Akademiyanın elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək;";

1.4.2. "e" yarımbəndinə "dövlət" sözündən əvvəl "mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə" sözləri əlavə edilsin;

1.4.3. "ə" yarımbəndi "j" yarımbəndi hesab olunsun və aşağıdakı məzmunda "ə" - "x" yarımbəndləri əlavə edilsin:

"ə) müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

f) həyat və sağlamlığı üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

g) şərəf və ləyaqəti aşağılayan fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

ğ) biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

h) təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələrdə) iştirak etmək;

x) "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

1.5. 6.17-ci bəndin birinci cümləsinə "diplom" sözündən əvvəl "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi - " sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2021-ci il*

# Təhsil naziri Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri ilə görüşüb

Fevralın 8-də təhsil naziri Emin Əmrullayev Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Morton ilə görüşüb.



Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib. Tərəflər həmçinin Britaniya Şurasının dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələr ətrafında fikir mübadiləsi aparıblar.

# 240 meqavatlıq külək elektrik stansiyası layihəsinə dair müzakirələr aparılıb

Energetika naziri Pərviz Şahbazov "ACWA Power" şirkətinin İdarə Heyətinin sədri Məhəmməd Abunayyan ilə videokonfrans formatında görüş keçirib.




AZƏRTAC Energetika Nazirliyinə istinadla xəbər verir ki, görüşdə qoyuluş gücü 240 meqavat (MVt) olan külək elektrik stansiyası layihəsi üzrə investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma müqavilələrinin imzalanmasından sonrakı müddət ərzində görülən və planlaşdırılan işlər müzakirə edilib.

Nazir Azərbaycan Respublikası Prezidentinin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 2019-cu il 5 dekabr tarixli Sərəncamı ilə yaradılmış komissiyanın beşinci iclasının keçirildiyini qeyd edib və iclasda külək elektrik stansiyası layihəsi ilə bağlı aparılmış müzakirələr haqqında məlumat verib.

Şirkət rəhbəri layihə üzrə Energetika Nazirliyi və "Azərenerji" ASC ilə əməkdaşlıq çərçivəsində görülmüş işlərdən danışıb. Hər iki tərəfdən layihənin icrasına cəlb olunan ekspertlərin peşəkarlığı yüksək qiymətləndirilib, səmərəli əməkdaşlığa görə təşəkkür edilib. Bildirilib ki, müqavilə tərəfləri arasında yüksək inam və etibarın olması layihənin vaxtında və uğurla tamamlanacağına əminlik yaradır.

Görüş zamanı sahə üzrə təlim, seminar, məlumat mübadiləsi tədbirlərinin həyata keçirilməsinin zəruriliyi vurğulanıb, layihənin yalnız biznes layihəsi deyil, o cümlədən bilik və təcrübə transferi layihəsi olduğu qeyd edilib.

Xatırladaq ki, qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyası layihəsi ilə bağlı müvafiq müqavilələr Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "ACWA Power" şirkəti arasında ötən il dekabrın 29-da imzalanıb.

"Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı**



# Naxçıvanın qəhrəman övladları Vətənə şərəflə və ləyaqətlə xidmət edərək böyük Qələbənin qazanılmasında mühüm rol oynayıblar

Bəşəriyyət bu günə qədər təkcə iki Dünya müharibəsinə şahidlik etməyib. Çox sayda müharibələr, müxtəlif qəhrəmanlıq, şücaət, rəşadət və fədakarlıq nümunələri tarixə əbədi həkk olunub. Yenilməz sərkərdələrin rəhbərlik etdiyi qüdrətli ordular, sözün əsl mənasında, tarix yazıblar, bir çox xalqlar əzəli yurdlarını qorumaq üçün mübarizlik və qələbə rəmzinə çevriliblər.

İftixaredici haldır ki, bu xoşbəxtlik şərəfli və qürurlu, zəngin dövlətçilik tarixinə malik Azərbaycan xalqına da nəsib olub. 30 ilə yaxındır ki, ərazisinin 20 faizi Ermənistanın işğalı altında olan Azərbaycan dövləti Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli Liderliyi, xalqımızın milli birliyi - həmrəyliyi, ordumuzun qüdrəti, əsgər və zabitlərimizin şücaəti sayəsində haqq - ədaləti bərpa edib, uzun illərin həsrəti başa çatıb.



## Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşü və tarixi Qələbə

Əlbəttə, böyük Qələbəyə aparan bu zəfər yolunu qət etməklə dövlətimizin qüdrətini təkcə düşmənə deyil, bütün dünyaya göstərdik. Daha dəqiq desək, 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-dək özünün ərazi bütövlüyünün bərpa edilməsi uğrunda Vətən müharibəsi aparan Azərbaycan dövləti möhtəşəm qələbə qazanaraq tarixi ədalətin bərpasına nail oldu. Azərbaycan Ordusu 44 gün davam edən hərbi əməliyyatlar zamanı ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə unudulmaz zəfər yürüşünə imza atdı, düşmənə sarsıdıcı zərbələr endirdi və işğalçı Ermənistanı ağır məğlubiyyətə uğratdı. Bunun nəticəsi kimi, Ermənistan noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanata imza atdı. Bu sənədə əsasən, işğalçı ölkə dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz Azərbaycana qaytardı. Nəticədə 30 ilə yaxın həllini tapmayan Dağlıq Qarabağ münaqişəsini Azərbaycan öz gücü, hərbi-siyasi qüdrəti ilə həll etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi: "Şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən dəfələrlə demişdim ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu - hərbi yolla. Ondan sonra məsələ siyasi yolla həll olundu və tarixi ədalət bərpa edildi".

## Vətən müharibəsi qəhrəmanlarının rəşadəti və misilsiz xidmətləri ən yüksək dəyərə, xüsusi minnətdarlığa layiqdir

44 günlük müharibənin nəticələri, yuxarıda dediyimiz kimi, Azərbaycan xalqının mübarizə əzmini, vətənpərvərlik ruhunu, öz Vətəninə sevgisini və bağlılığını bir daha ortaya qoydu. Dünya azərbaycanlılarının sıx həmrəylik nümayiş etdirməsi ilə yanaşı, döyüş meydanında qətiyyətlə və əzmlə mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrinin igid əsgər və zabitləri böyük cəsarət və fədakarlıq göstərdilər. Onlar Vətən qarşısında borclarını şərəflə və ləyaqətlə yerinə yetirdilər, gələcək nəsillər üçün örnək vətəndaşlıq nümunəsi yaratdılar. Heç şübhəsiz, bu nümunə həm də yeni nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində, vətənə bağlılıq ruhununun gücləndirilməsində müstəsna rol oynayacaqdır.

Birmənalı olaraq Vətən müharibəsi qəhrəmanlarının xidmətləri, rəşadətləri ən yüksək dəyərə və xüsusi minnətdarlığa layiqdir. Necə deyərlər, onların borcu ödənilməz. O da təqdirəlayiq haldır ki, Azərbaycan cəmiyyəti və dövləti tərəfindən həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olanların ailələrinə, eləcə də müharibədə iştirak edən, yaralanan hərbçilərimizə hər cür dəstək verilir. Bu, həm milli həmrəyliyin bariz nümunəsi, həm də xalqın məğrurluğunun, dövlətin qüdrətinin göstəricisidir. Prezident İlham Əliyev Şuşa şəhərinə səfəri çərçivəsində hərbçilərlə görüşü zamanı bu məqama xüsusi olaraq toxundu. Dövlət başçısı bildirdi ki, "bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunublar. Eyni zamanda Vətən müharibəsinin qazilərinə hərtərəfli dövlət dəstəyi göstərilir".

Sevindirici haldır ki, Prezident İlham Əliyevin son bir neçə ay ərzində imzaladığı müvafiq sənədlər əsasında şəhid ailələrinin, müharibə əlillərinin, eləcə də milli qəhrəmanlarımızın təqaüdləri artırılıb. Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis olunub. Prezident İlham Əliyevin tapşırığı ilə şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 2020-ci il üzrə rekord sayda - 1500 mənzil və fərdi evin verilməsi proqramı uğurla icra olunub. Cari il ərzində də şəhid ailələrinə və müharibə əlillərinə yeni mənzillərin açarları təqdim olunub. Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam isə bu baxımdan xüsusi əhəmiyyət daşıyır və sözügedən istiqamətdə işlərin davamlı olacağını göstərir. Bunlarla yanaşı, yaralı hərbçilərimizin dövlət tərəfindən qayğı ilə əhatə olunması, əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi istiqamətində məqsədyönlü addımların atılması cəmiyyətdə olduqca yüksək qiymətləndirilir.

## Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları Vətən müharibəsində fəal iştirak edərək böyük qəhrəmanlıq göstəriblər

Qürur hissi ilə qeyd edə bilərik ki, Vətən müharibəsində tarixi qələbənin əldə olunmasında - torpaqlarımızın işğaldan azad və ərazi bütövlüyümüzün bərpa edilməsində digər bölgələrdə olduğu kimi, respublikamızın Ermənistanla ən böyük sərhədə malik bölgəsi Naxçıvanın da qəhrəman övladları yüksək rəşadət nümayiş etdiriblər. Sentyabrın 27-dən başlayaraq noyabrın 10-dək davam edən, müzəffər Ordumuzun tarixi Qələbəsi ilə nəticələnən müharibədə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları da fəal iştirak ediblər. Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri işğal altında olan rayonlarımızın, o cümlədən bu gün Azərbaycan mədəniyyətinin paytaxtı olan - əzəli torpağımız Şuşanın azad olunmasında mühüm rol oynayıblar. Sıravi əsgərdən polkovnik rütbəsi daşıyan zabitə qədər Naxçıvan hərbçiləri Ordumuzun xilaskarlıq missiyası çərçivəsində cəsarətlə döyüşərək şəhidlik zirvəsinə yüksəliblər. Bütövlükdə, İkinci Qarabağ müharibəsində Naxçıvan 200-dən artıq şəhid verib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, "Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər". Təsadüfi deyil ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları göstərdikləri rəşadətə görə Prezident İlham Əliyevin müvafiq qərarları əsasında Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülüb, orden və medallarla təltif olunublar.

## Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş hazırlığına malik olduğunu bir daha sübuta yetirdi

Əlbəttə, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçularının öz vəzifə borclarını şərəflə, ləyaqətlə və peşəkarlıqla yerinə yetirmələri yüksək vətənpərvərlik ruhu ilə yanaşı, həyata keçirilən ordu quruculuğunun real nəticəsidir.

Bu bir həqiqətdir ki, Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycan güclü orduya malikdir. Ordumuz bu gün ən müasir texnika və silahlarla təmin olunub, ölkəmizin hərbi sənaye kompleksi inkişaf edir. Bunlarla yanaşı, kadr potensialının inkişafı, orduda peşəkarlığın daimi olaraq yüksəldilməsi Silahlı Qüvvələrimizin gücünü artıran çox əhəmiyyətli amildir. Bir sözlə, Azərbaycan Ordusunun hərbi-texniki təchizat səviyyəsi müasir tələblərə və NATO standartlarına uyğundur, kadr-mütəxəssis ehtiyatı isə öz vəzifələrini layiqincə yerinə yetirən peşəkarlardan ibarətdir. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu da bu mənada istisna deyil.

Ötən müddət ərzində Əlahiddə Ümumqoşun Ordunun birləşmələrinin maddi-texniki bazası gücləndirilib, bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, xidmətin nümunəvi təşkili təmin olunub. Hərbi kadr hazırlığı da bu prosesə dəstək verən əhəmiyyətli amillərdəndir. Ötən dövrdə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazasının möhkəmləndirilməsi, kursantlar üçün müasir tədris və məişət şəraitinin yaradılması isə ordumuzun peşəkar zabitlərlə təminatına mühüm töhfə olub.

Beləliklə, Əlahiddə Ümumqoşun Ordu 2018-ci ildəki uğurlu Günnüt əməliyyatından sonra tariximizə şanlı Vətən müharibəsi kimi daxil olan İkinci Qarabağ müharibəsində də yüksək döyüş hazırlığına malik olduğunu sübuta yetirdi. Şübhəsiz ki, Əlahiddə Ümumqoşun Ordu Ali Baş Komandanımızın döyüş əmrinə hazır, yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik qüvvə kimi bundan sonra da həm muxtar respublikanın müdafiəsinin etibarlı təşkilində, həm də Azərbaycanın ərazi bütövlüyünün qorunmasında vacib rol oynayacaqdır.

## Şəhidə ehtiram, şəhid ailələrinə, müharibə iştirakçılarına xüsusi diqqət və qayğı

Yuxarıda qeyd etdiyimiz kimi, şəhidə ehtiram ali dəyər olmaqla yanaşı, həm də yüksək vətənpərvərlik nümunəsidir. Bu gün Naxçıvan Muxtar Respublikasında da bu reallıq aşkar surətdə özünü göstərir. İkinci Qarabağ müharibəsində nümunəvi qəhrəmanlıq göstərərək canlarını fəda etmiş şəhid Vətən övladlarının Naxçıvanda ehtiramla qarşılanması, Ali Məclisin sədri Vasif Talıbovun, muxtar respublikanın rəhbərliyinin və əhalisinin qarşılanma mərasimlərində iştirak etməsi bu baxımdan xüsusi qeyd edilməlidir.

Ümumiyyətlə, Naxçıvanda həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının ailələrinə davamlı maddi və mənəvi dəstək göstərilir. Muxtar respublikanın Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə istər şəhidlik statusunun müəyyənləşdirilməsi, istərsə sözügedən kateqoriyadan olan insanların sosial-məişət şəraitinin yaxşılaşdırılması, istərsə də təqaüd və müavinətlərin verilməsi istiqamətlərində atılan addımlar şəhidlərə ehtiramın bariz nümunəsidir.

Bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə müharibə iştirakçılarına və sağlamlıq imkanları məhdud şəxslərə hərtərəfli dövlət qayğısı göstərilməsi də olduqca mühüm əhəmiyyətə malikdir. Bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, müvafiq kateqoriyadan olan insanlara mənzil və minik avtomobilləri verilir, onlar müalicələrə göndərilir və sağlamlıqlarının qayğısına qalınır. Bütövlükdə, Vətənə şərəflə və ləyaqətlə xidmət edərək böyük Qələbənin qazanılmasında mühüm rol oynayan Naxçıvanın qəhrəman övladlarının, şəhidlərimizin ailələrinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması milli birliyimizi gücləndirən çox önəmli amillərdəndir.

***Siyavuş NOVRUZOV,***
***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü***

---

**◆ VI çağırış Milli Məclisə seçkilərdən bir il ötür**

# Zamanın tələbi olan islahatlar

## Milli Məclis ötən bir ildə İlham Əliyevin inkişaf kursuna layiqli töhfələr verib

*Əvvəli 1-ci səh.*





### Milli Məclisin birillik fəaliyyətində daha çox modernləşməni görürük

**Musa QULİYEV,**
*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri:*

- VI çağırış Milli Məclisin fəaliyyətinin bir ilinə nəzər salanda bunun uğurlu və faydalı olduğunu deyə bilərik. Ötən il martın 10-da parlamentin ilk iclasında Prezident İlham Əliyev iştirak etdi və proqram xarakterli nitqi ilə bizə fəaliyyət istiqamətimizin yol xəritəsini göstərdi. Dövlət başçısı daha çox demokratiklik, qanunvericilik fəaliyyətimizin artırılması, seçici maraqlarının təmin olunması və müdafiəsi, daha çox beynəlxalq aləmdə Azərbaycanın haqq işininin müdafiə olunması, milli-mənəvi dəyərlərə dərin hörmət, eyni zamanda deputat etikasının gözlənilməsi, fəallığın artırılması ilə bağlı çox faydalı məsləhətlər verdi.

Eyni zamanda cənab Prezident parlament seçkilərinə diqqət yetirərək bu seçkilərin olduqca demokratik əsasda keçirildiyini vurğuladı və seçicilərin mütləq əksəriyyətinin Yeni Azərbaycan Partiyasına dəstək verməsini iqtidarın apardığı siyasətin xalq tərəfindən bəyənilməsinin bir ifadəsi kimi qiymətləndirdi.

Milli Məclisin birillik fəaliyyətində biz daha çox modernləşməni görürük. Ötən ilin martından başlanan qlobal pandemiya bir çox fəaliyyətimizdə, o cümlədən qanunvericilik işlərimizdə parlamentin işinin gündəlik şəraitə və tələblərə uyğun qurulmasını zəruri etdi. Ona görə də daha çox elektron kommunikasiyalardan istifadə etməklə işimizi distant şəkildə qurmağa üstünlük verdik və buna da qısa müddət ərzində nail olduq. Parlamentin komitərləri şəraitə uyğun olaraq karantin qaydalarına əməl etməklə iclaslarını keçirdilər. Buraya həm də dinləmələri, seçici görüşlərini də əlavə etmək olar. Beynəlxalq nümayəndə heyətlərində təmsil olunan deputatlar da iclaslarını bu şəkildə keçirə bildilər. Bu, əslində, yenilikdir və dördüncü sənaye inqilabı dövründə parlamentin fəaliyyətinin bu şəkildə qurulması həm də Azərbaycan Milli Məclisinin şəraitə daha tez adaptasiya olunması imkanlarından xəbər verir.

Parlamentin rəhbərliyi, komissiyaların, komitələrin rəhbərliyində yeni şəxslərin olması, xüsusilə müxalifətin təmsilçilərinin həm ali rəhbərlikdə, həm də komitə və komissiya rəhbərliyi səviyyəsində təmsil olunması daha çox demokratik ab-hava gətirdi. Həmçinin fikir mübadiləsinin fəal aparılmasını təmin etdi və parlamentin xüsusən plenar iclaslarının daha canlı keçməsini şərtləndirdi.

Parlamentin qanunvericilik fəaliyyətində kifayət qədər fəallıq hiss etdik. İstər dinləmələrin keçirilməsi, hökumətin müvafiq qurumlarının dinləmələrinin geniş müzakirə olunaraq keçirilməsi, istər büdcə müzakirələrinin bu şəkildə baş tutması parlamentdə yaranan ab-havanın bilavasitə cəmiyyət tərəfindən də hiss olunmasına öz təsirini göstərdi. Kifayət qədər seçici maraqlarının qorunması, qaldırdıqları probemlərin həlli istiqamətində deputatların fəallığı hiss olundu.

Ötən il həm koronavirusla, həm də erməni faşizmi ilə mübarizədə dövlətimizin tarixində vacib il kimi qaldı. Hər iki istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük qələbələr qazanıldı. Aparılan siyasətin insanlara çatdırılmasında deputatların fəallığı xüsusilə qeyd olunmalıdır. Televiziya, radio, qəzet və sosial şəbəkələrdə Prezidentin apardığı siyasətin təbliğ olunmasında deputatlar kifayət qədər fəal oldular. Əgər əvvəlki illərlə müqayisə etsək, indi fəal deputatlarımızın sayı daha çoxdur. Deputatlarımızın yeni korpusu, yəni yeni heyət deyərdim ki, gənclərdən ibarətdir. Onların bilik və bacarıqları, səriştələri kifayər qədər yüksəkdir və artıq Azərbaycan seçicisi onların simasında daha yeni və uğurlu, praqmatik, çevik siyasətçilər görməkdədir.

Eyni zamanda ötən ilin iyulunda Ermənistanın Tovuz təxribatı, eləcə də sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsi dövründə şəhidlərimiz, yaralılarımız oldu. Onların ailələrinin sosial problemlərinin həllində, müəyyən psixoloji yardımların edilməsi işində deputatlarımız kifayər qədər fəal iştirak etdilər.

Ümumiyyətlə, xarakterizə etsək, bir il ərzində Milli Məclisin fəaliyyətini müsbət və faydalı, yenilikçi hesab edirəm və düşünürəm ki, uğurlarımız qarşıdakı dörd ildə daha da artacaq.

### Prezidentin tövsiyələri parlamentin fəaliyyətinə müsbət impuls verdi

**Tahir MİRKİŞİLİ,**
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri:*

- 2020-ci il dünyada dövlət idarəetmə sistemləri üçün sınaq ili oldu. İndiyə qədər görünməmiş bir böhranla üz-üzə gələn ölkələr vətəndaşların sağlamlığı və iqtisadiyyatın qorunması üçün mümkün olan bütün vasitələrdən istifadə etməyə çalışdılar.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bu sınaqdan da üzüağ çıxdı. Dövlət başçısının güclü iradəsi və dövlətin gücü sayəsində böhrandan minimum itki ilə çıxmağı bacardıq. Qarabağın işğaldan azad edilməsi ilə möhtəşəm qələbə əldə edən Azərbaycan dünyaya öz gücünü və imkanlarını göstərdi.

VI çağırış Milli Məclis qarşısında da mühüm işlər dururdu. Ötən il mart ayının 10-da Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev parlamentin qarşısında olan çağırışları dəqiq təhlil etdi və müvafiq tövsiyələrini verdi. Dövlət başçısı fəaliyyətdə əsas istiqamətlər kimi kəmiyyətə deyil, keyfiyyətə üstünlük verilməsini, müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməyi, mövcud qanunvericilik bazasını təhlil etməyi və təşəbbüskar olmağı göstərdi. Ötən 1 il ərzində Milli Məclis dövlət başçısının göstərdiyi bu istiqamətlərdə fəaliyyət göstərərək müsbət nəticələr əldə etməyə çalışmışdır.

COVID-19 pandemiyasının geniş yayılması kollektiv orqan olan Mili Məclisin də işinə xeyli təsir edib. Amma buna baxmayaraq, Milli Məclisin işində qısa müddətdə informasiya texnologiyalarının geniş tətbiq olunması işgüzarlığın artırılmasına müsbət təsir edib. Plenar iclaslarda konstruktiv müzakirələrin aparılması, komitə iclaslarında ictimai iştirakçılığın təmin olunması, qanun layihələrinin müzakirəsində üçüncü tərəflərin iştirak etməsi qəbul olunan qanunların keyfiyyətinin artırılmasına xidmət edib.

Ötən bir il ərzində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində 65 qanun layihəsi müzakirə olunub və qəbul edilib. Müxtəlif məsələlərin sahibkarlarla müzakirəsi üçün 4 işçi qrup yaradılıb və geniş təhlillər aparılıb. Mövcud qanunvericilik aktlarının təhlili üçün xarici təcrübədən yararlanmaq məqsədilə geniş araşdırmalara başlanılıb.

2020-ci ildə Dünya Bankı Azərbaycanı ən çox islahat aparan 10 ölkədən biri elan edib. Dövlət başçısı tərəfindən aparılan sürətli islahatlar daim iqtisadi qanunvericiliyin də təkmilləşməsini və islahatlar üçün münbit hüquqi çərçivənin yaradılmasını özündə ehtiva edib. Aparılmış təhlillər bu istiqamətdə xeyli potensialın mövcudluğunu və bu potensialın reallaşdırılması üçün müvafiq işlərin görülməli olduğunu üzə çıxarıb.

Ötən bir ildə əldə edilmiş təcrübə və müsbət nəticələr qarşımızda duran müasir çağırışlara cavab vermək yönümündən yaxşı təcrübə olub. Əminəm ki, bu təcrübə önümüzdəki illərdə mövcud resurslarımızın səfərbər edilərək Prezident İlham Əliyev tərəfindən müəyyən edilən inkişaf kursunun daha sürətli həyata keçirilməsi üçün müvafiq qanunvericilik çərçivəsinin inkişaf etdirilməsində xeyli faydalı olacaq.

### Parlament milli prioritetlərin uğurla reallaşmasına öz töhfəsini verəcək

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Fevralın 9-da VI çağırış Milli Məclisə keçirilən seçkilərin bir ili tamam olur. Deputatı olduğum üçün dəyişikliklərin siyasi-hüquqi yönümünü əhatə edən parlament islahatlarından bəhs etmək istəyirəm. İlk növbədə, onu qeyd edim ki, qanunverici orqanın fəaliyyətinin Prezident İlham Əliyevin apardığı siyasətə, respublikamızdakı inkişaf proseslərinə, ölkəmizin dünyada artan nüfuzuna adekvat olması, o cümlədən parlamentin dövlət siyasətinə töhfə verməsi olduqca vacibdir. Son dövrlərdə kompleks şəkil alan islahatların dövlət idarəçiliyinin əsas qollarından olan qanunverici hakimiyyəti də əhatə etməsi olduqca vacib idi və təsadüfi deyil ki, bir il əvvəl növbədənkənar parlament seçkilərinin keçirilməsi ölkə ictimaiyyəti, o cümlədən siyasi partiyalar tərəfindən təqdir edildi.

Dövlət idarəetməsində islahatlara hələ 2019-cu ilin əvvəllərindən başlanılmışdı. Həmin ilin yanvar ayında bir sıra dövlət orqanlarında struktur islahatları həyata keçirilmişdi. Mərkəzi icra hakimiyyəti orqanlarını əhatə edən qurumların bəziləri ləğv edilmiş, bəzilərinin əsasında yeniləri yaradılmışdı. Aprel ayından isə Prezidentin müvaviq fərmanı ilə dövlət hakimiyyətinin əsas qollarından biri olan məhkəmə-hüquq sistemində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə yeni islahatlara başlanıldı. Dövlət idarəetməsinin icra hakimiyyəti sistemində islahatlar sonrakı müddətdə də davam etdi. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları vətəndaş məmnunluğu ilə qarşılandı, idarəçilikdə baş verən keyfiyyət dəyişiklikləri dərhal müsbət məqamları ilə hiss olunmağa başladı.

Növbədənkənar parlament seçkiləri isə dövlət idarəetməsindəki islahatların siyasi-hüquqi sferadakı davamı oldu. Onu da bildirmək istəyirəm ki, növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü mənim də üzvü olduğum Yeni Azərbaycan Partiyasından gəlmişdi. YAP-ı təmsil edən deputatların təşəbbüsü ilə Milli Məclisin buraxılması və yeni parlament seçkilərinin təyin edilməsi üçün Prezidentə müraciətin qəbul edilməsi partiyamızın islahatlara verdiyi dəstəyin və töhfənin nümunəsi idi. YAP üzvləri bu qənaətdə idilər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qanunverici hakimiyyət sferasından kənarda qalmamalıdır.

Beləliklə, siyasi islahatların göstəricisi kimi 2020-ci il fevralın 9-da keçirilən parlament seçkiləri Azərbaycanın demokratik inkişafının növbəti təsdiqi oldu. Ən əsası bu seçki təsdiqlədi ki, Azərbaycan ictimaiyyəti ölkədə həyata keçirilən islahatları dəstəkləyir. Milli Məclisdə 11 siyasi partiyanı təmsil edən deputatların təmsil olunmaları demokratik inkişafın göstəricisidir. Müxalifətdən olan deputatlar Milli Məclisin və komitələrin rəhbərliyində də təmsil olunurlar.

Hesab edirəm ki, ötən bir ildə parlament öz üzərinə düşən vəzifələrin öhdəsindən inamla gəlib, öz fəaliyyəti və qanun yaradıcılığı ilə Prezident İlham Əliyevin siyasi kursuna layiqli töhfələr verib. Ötən bir il demək olar ki, pandemiya dövrü olsa da, Milli Məclis qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib.

Yeni parlamentin ötən bir ildəki fəaliyyətinin mühüm bir dövrü Vətən müharibəsi günlərinə təsadüf etdi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Ordumuzun işğalda olan torpaqlarımızın azad edilməsi uğrunda apardığı Vətən müharibəsində Azərbaycan parlamenti də siyasi meydanda oldu, respublikamızın haqlı mövqeyinin beynəlxalq müstəvidə dəstəklənməsi üçün fəal parlament diplomatiyası həyata keçirdi. Erməni faşizminin iç üzünü və çirkin mahiyyətini ifşa etmək üçün Milli Məclis tərəfindən lazım olan bütün tədbirlər görüldü, parlamentin rəhbərliyi və deputatlar xalqımızın haqq işinə beynəlxalq dəstəyi təmin etmək üçün hər bir imkandan səmərəli istifadə etdilər. Müharibədə qazanılan tarixi Qələbə münasibətilə Milli Məclis ayrıca iclas keçirərək Prezident, Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına müraciət qəbul etdi.

Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyur. İşğal olunmuş ərazilərimiz artıq azaddır, koronavirus pandemiyası isə dövlətimizin səmərəli mübarizəsi nəticəsində tezliklə başa çatacaq. Bütün bunlar Azərbaycanın yeni inkişaf mərhələsinin başlanması deməkdir və təsadüfi deyil ki, Prezident İlham Əliyev növbəti 10 il üçün Milli Prioritetləri elan edib. Bütün bunlar Milli Məclisin də üzərinə yeni və şərəfli vəzifələr qoyur. Əminliklə qeyd etmək istərdim ki, VI çağırış Milli Məclis bu dövrdəki səlahiyyət müddətində öz vəzifələrinin öhdəsindən layiqincə gələcək, dövlətimizin yeni inkişaf məqsədlərinin uğurla reallaşmasına, Milli Prioritetlərin həyata vəsiqə almasına layiqli töhfələr verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Naxçıvan Muxtar Respublikası - 97

# Qars müqaviləsindən Naxçıvan dəhlizinə və dünyaya

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı bəşər sivilizasiyasının ilkin başlanğıc nöqtələrindən biri kimi qəbul edilmiş Nuh peyğəmbərin dünya tufanından sonra dabanını ilk dəfə yerə basdığı qədim torpaqdır... Gəmiqaya zirvəsi - Nuh peyğəmbərin əfsanəvi gəmisinin qayaya çevrilmiş daş heykəlidir... Naxçıvan - Dədə Qorqud yurdu, oğuz məskənidir...*

Naxçıvan - Azərbaycanın dövlətçilik tarixində mühüm yeri və rolu olmuş Atabəylər dövlətinin paytaxtı missiyasını şərəflə yerinə yetirmişdir. Səfəvilərin yaratdığı mərkəzləşdirilmiş qüdrətli Azərbaycan dövlətinin əsas dayaq nöqtələrindən biri də Naxçıvan bəylərbəyliyi idi.

Eyni zamanda 1747-ci ildən 1828-ci illəri əhatə edən Naxçıvan xanlığı da Azərbaycanın dövlətçilik tarixinin şərəfli-şanlı səhifələrindən birini təşkil edir. Çar Rusiyasının formalaşdırdığı Naxçıvan mahalı da nəhəng imperiyanın daxilindəki dövlətçilik subyektlərindən biri idi.

1918-1919-cu illərdə fəaliyyət göstərmiş Araz-Türk Respublikası Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin funksiyalarını həyata keçirmiş dövlət qurumu kimi tarixə düşmüşdür.

Bütün bunlarla bərabər, Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu əldə etməsi və muxtar respublika kimi fəaliyyət göstərməsi bu diyarın çoxəsrlik tarixinin şərəfli hadisəsidir. Muxtariyyət statusu qazanmaq Naxçıvanın qədim Azərbaycan torpağı kimi özünün tarixi yolunu davam və inkişaf etdirməsi və əbədi olaraq Azərbaycanın tərkibində qalmasının ən mühüm səbəblərindən biridir. Eyni zamanda Azərbaycanın üzvi bir parçası kimi Naxçıvan Muxtar Respublikasının yaranması ilə Ermənistanın bu qədim Azərbaycan torpağı haqqındakı iddialarının qarşısına dəmir sədd çəkilmişdir.

Naxçıvanda Azərbaycana bağlı muxtar respublikanın təşkil olunması tarixi zərurətdən yaranmışdır. Rusiya bolşevik hökumətinin köməyi ilə 1919-1920-ci illərdə ermənilərin Zəngəzuru işğal etməsi ilə Naxçıvan diyarının Azərbaycandan ayrı salınması Naxçıvan ərazisində muxtar bir dövlət qurumu yaradılmasını doğuran əsas zəruri şərtlərdən birincisidir. Rusiya Sovet Federativ dövlətinin Qızıl ordunun iştirakı ilə Naxçıvan ərazisini işğal etdikdən sonra burada müstəqil bir Naxçıvan Sovet Sosialist Respublikası yaradıldığını elan etməsi əslində həmin torpaqları bir az sonra Ermənistana vermək planlarının başlanğıcı idi. Ermənistan Sovet Respublikasının Naxçıvana dair ərazi iddiaları da bu qədim Azərbaycan torpaqlarında muxtar bir dövlət qurumunun formalaşdırılması zərurətini doğurmuşdur.

Azərbaycan tarixinin bütün dövrlərində Naxçıvan həmişə doğma ana vətənin ayrılmaz tərkib hissələrindən biri olmuşdur. Bununla belə, Naxçıvanın Azərbaycana bağlı muxtar bir qurum kimi yaşadılmasının əsası Araz-Türk Respublikası ilə qoyulmuşdur. Məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi məsuliyyətli bir dövrdə Əmir bəy Nərimanbəyovun başçılıq etdiyi Araz-Türk Respublikası Naxçıvanın müdafiəsini yaratmış, ermənilər tərəfindən işğal edilməsinin qarşısını almışdır. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri Araz-Türk Respublikası hökuməti rəsmilərinin başçılığı ilə Naxçıvanda ermənilərin ərazi iddialarına, hərbi müdaxilələrinə qarşı aparılan qətiyyətli mübarizəni yüksək qiymətləndirmişlər.

Naxçıvanın Azərbaycanın tərkibində muxtar qurum kimi yaradılmasının zəruri olmasında Behbud ağa Şahtaxtinskinin təşviqi ilə 1921-ci ilin yanvar ayında keçirilmiş referendum müstəsna dərəcədə mühüm rol oynamışdır. Belə ki, vahid sovet ailəsi kimi ümumi beynəlmiləlçi mövqeni bəhanə olaraq əsas götürmüş gənc Azərbaycan sovet hakimiyyətində Naxçıvan ərazisinin Ermənistan Sovet Respublikasına verilməsinə dair təşəbbüslər olmuşdur. Bu məkrli işin təşkilatçıları olan Azərbaycan Sovet Respublikasının yüksək rəhbər orqanlarında məsul vəzifə tutmuş Anastas Mikoyan və Levon Mirzoyan kimi daşnak-bolşeviklər Rusiya Federasiyasının dəstəyini alaraq Ermənistanda yeni bir sosialist respublikasını qurmaq üçün Naxçıvanın həmin bolşevik hökumətinə verilməsini həyata keçirməyə çalışmışlar. Düşünülmüş şəkildə siyasi mühitə diktə edilmiş "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz" - tezisindən Naxçıvanın Ermənistana verilməsinin əsaslandırılması üçün bəhanə kimi istifadə olunmuşdur.

Bu təhlükəli işin reallaşacağını görən Azərbaycan İnqilab Komitəsinin üzvü və Xalq Ədliyyə Komissarı Behbud ağa Şahtaxtinski heç bir icazə və razılıq almadan, müzakirə açmadan Naxçıvana gələrək, burada əhali arasında Naxçıvanın Ermənistana verilməsi ideyasının əleyhinə və Azərbaycanın tərkibində qalması uğrunda mübarizə edilməsi üçün təbliğat işləri aparmışdır. Yerli əhalini Naxçıvanın Azərbaycana məxsus ərazi kimi saxlanılması üçün referendum tələbi ilə çıxış etməyə təşviq etməsi və buna nail olması Behbud ağa Şahtaxtinskinin Naxçıvanı qoruyub saxlamaq sahəsindəki və sonralar burada muxtar respublikanın yaradılması yollarındakı müstəsna xidmətidir.

1921-ci ilin yanvar ayında Naxçıvanda keçirilmiş referendum zamanı əhalinin 90 faizi Azərbaycanın tərkibində yaşamaq müddəasına səs vermişdir. Bu, Azərbaycan tarixində ölkənin ərazi bütövlüyünün qorunub saxlanılması üçün XX əsrin əvvəllərində həyata keçirilmiş mühüm tarixi hadisədir. Bundan başqa, Behbud ağa Şahtaxtinskinin 1920-1921-ci illərdə RSFSR Xalq Komissarlar Sovetinin sədri Vladimir Leninə göndərdiyi məktublarda Naxçıvanın Azərbaycanın tərkibində qalmasının əsaslandırılmış şəkildə şərh edilməsi də Kreml rəhbərliyində bu məsələyə ehtiyatla yanaşılmasına şərait yaratmışdır.

Nəhayət, Behbud ağa Şahtaxtlının yaxından və fəal iştirakı ilə 16 mart 1921-ci ildə Rusiya Federasiyası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış Moskva müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi saxlanması haqqında müddəanın özünə yer alması ilə bu məsələ arxa plana keçirilmişdir. Az sonra, yəni 13 oktyabr 1921-ci ildə Rusiya Federasiyasının iştirakı ilə Türkiyə Cümhuriyyəti, Azərbaycan, Gürcüstan və Ermənistan Respublikaları arasında imzalanmış məşhur Qars müqaviləsi ilə Naxçıvan ərazisinin Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublika statusunda fəaliyyət göstərməsi məsələsi birdəfəlik həll olunmuşdur. Hətta Qars müqaviləsində Naxçıvan Muxtar Respublikasına hər hansı bir başqa dövlət tərəfindən müdaxilə edilərsə, Türkiyə Cümhuriyyətinin onu himayə etməsinə dair xüsusi bir müddəanın daxil edilməsi bu anlaşmanın tarixi-siyasi əhəmiyyətini daha da qüvvətləndirmişdir.

Bütün bunlara görə 1921-ci ilin Qars müqaviləsi Azərbaycanın cənub-qərb sərhədlərində ərazi bütövlüyünün qoruyub saxlaması və Naxçıvana muxtariyyət verilməsi baxımından böyük tarixi əhəmiyyətə malik olan siyasi hadisədir. Qars müqaviləsi ilə Ermənistanın Şərqi Anadoluda və Naxçıvanda ərazi iddialarına son qoyulmuş, Zaqafqaziya Respublikaları arasında Ermənistanın yaratdığı gərginlik, separatçılıq fəaliyyəti dayandırılmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Qars şəhərində imzalanmış beynəlxalq statusa malik müqaviləyə yüksək qiymət vermiş, Qars müqaviləsinin müddəalarına əsasən, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini tarixi nailiyyət adlandırmışdır. Hətta XX əsrin sonlarına yaxın Ermənistan tərəfi yenidən Naxçıvan Muxtar Respublikasına hərbi təcavüz edərkən və ərazi iddiaları irəli sürərkən görkəmli dövlət xadimi Heydər Əliyev 24 mart 1992-ci il tarixdə Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə Ankaradakı tarixi görüşü zamanı Qars müqaviləsinin müddəalarını yada salmaqla beynəlxalq ictimaiyyəti mövcud reallıq haqqında məlumatlandırmış, Ermənistan tərəfini bir daha susmağa məcbur etmişdir.

Beləliklə, 1922-ci ildə çağırılmış Zaqafqaziya Sovetlər Qurultayında Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Naxçıvanın muxtar respublika kimi fəaliyyət göstərməsi elan olunmuşdur. Bu vaxtdan etibarən Rusiya Federasiyası rəhbərliyinin Ermənistanın xeyrinə yaratdığı müstəqil Naxçıvan Sovet Sosialist Respublikası ləğv edilmişdir. Buna baxmayaraq, 1922-1923-cü illərdə siyasi-inzibati idarəetmə quruluşu kimi burada respublika deyil, Naxçıvan Diyar Komitəsi formatında qurum fəaliyyət göstərmişdir.

Nəhayət, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 5 dekabr 1923-cü il tarixli qərarında Naxçıvan Diyar Komitəsinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi məsələsi özünün qəti həllini tapmışdır. Bütün bunlardan sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan ölkəsinin Azərbaycanın protektorluğunda Naxçıvan Muxtar Sovet Sosialist Respublikası statusunda fəaliyyətə başlaması rəsmiləşdirilmişdir. Ümumnaxçıvan Sovetlər Qurultayının 18 aprel 1926-cı il tarixdə çağırılmış iclasında qəbul olunmuş Naxçıvan Muxtar Respublikasının birinci Konstitusiyasının xüsusi bir maddəsi ilə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Azərbaycan Sovet Sosialist Respublikasının protektorluğunda olmaqla onun tərkib hissəsi olması" hüquqi cəhətdən də təsdiq olunmuşdur. Beləliklə, uzun və çətin bir mübarizədən sonra Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılması işi başa çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində coğrafi prinsiplər əsasında yaradılmış muxtar qurumdur. Qeyd olunduğu kimi, Naxçıvanın muxtariyyət ideyası RSFSR rəhbərliyi tərəfindən Zəngəzurun Ermənistana verilməsi ilə bu torpaqların Azərbaycan Sovet Respublikasının ərazisindən ayrı salınmasından doğan zərurət əsasında meydana gəlmişdir. İkincisi, Naxçıvana muxtariyyət statusu verilərkən onun ərazisinin coğrafi baxımdan bir neçə dövlətlə: Türkiyə Cümhuriyyəti, İran və Ermənistanla sərhəd olması məsələsi də nəzərə alınmışdır. Beynəlxalq əhəmiyyətə malik olan 1921-ci il Moskva və Qars müqavilələrində Naxçıvanın muxtar qurum kimi statusu siyasi cəhətdən də əsaslandırılmışdır.

Sovet hakimiyyəti illərində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində şərəfli və məsuliyyətli bir yol keçmişdir. Bütün təqiblərə və ideoloji təzyiqlərə baxmayaraq, Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da savadsızlığın ləğv edilərək məcburi orta təhsilin həyata keçirilməsi, aqrar sahə ilə yanaşı, sənaye sektorunun da formalaşdırılması, maarif və mədəniyyət sahələrində müəyyən dirçəlişə nail olunması sovet dövrünün mühüm nailiyyətlərindən hesab oluna bilər.

Bununla belə, XX əsrin 50-60-cı illərində Ermənistan yenidən Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddialarını davam etdirmişdir. Ermənilər Sovet İttifaqının rəhbərliyində Nikita Xruşşovla Anastas Mikoyanın münasibətlərindən istifadə edərək, Naxçıvanın Ermənistan SSR-nin tərkibinə daxil edilməsinə nail olmağa çalışmışlar. Naxçıvan torpağının yetirmələri olan görkəmli Azərbaycan ziyalıları mərkəzin bu sahədəki qeyri-qanuni planlarının həyata keçirilməsi üçün açıq və ciddi mübarizə aparmışlar. Böyük vətəndaş-alim Abbas Zamanov 1957-ci ildə Azərbaycan Elmlər Akademiyasında keçirilmiş məsul bir yığıncaqda mərkəzi hökumətin Naxçıvanın Ermənistana verilməsi siyasətini açıq şəkildə tənqid etmişdir. Siyasi xarakter daşıyan bu addımına görə Abbas Zamanov Azərbaycan Dövlət Universitetinin müəllimi vəzifəsindən azad edilmiş, kommunist partiyası sıralarından çıxarılmışdır.

Bundan başqa, XX əsrin 60-70-ci illərində Naxçıvanda muxtar respublikanın təşkili uğrunda mübarizədə mühüm xidmətləri olmuş qırmızı taborçuların müdafiə edilməsi, İrəvan şəhərinin süni şəkildə uydurulmuş erməni şəhəri kimi 2750 illiyinin qeyd olunması və erməni quldur cəlladı Andronikin 100 illiyinin Ermənistanda qeyd olunmasının əleyhinə apardıqları mübarizə də nəticə etibarilə Ermənistanın və onların sovet hökuməti rəhbərliyindəki havadarlarının susdurulmasına xidmət edirdi.

Naxçıvan MSSR Ali Sovetinin katibi, tarix elmləri namizədi Əli Əliyevin 1 mart 1966-cı il tarixində Sovet İttifaqı KP MK-nın ideologiya şöbəsinə ünvanladığı etiraz məktubundakı aşağıdakı mətləblər nəticə etibarilə Ermənistanın davam etməkdə olan qanunsuz hərəkətlərinə qarşı səsləndirilmiş ittihamlardan ibarətdir: *"İzvestiya" qəzetinin 16 yanvar 1966-cı il tarixli nömrəsinin "Sonuncu gün" bölməsində Marietta Şaqinyanın "Volqa" ilə Fransada dolaşarkən" sərlöhvəli məqaləsi verilmişdir. Məqalə müəllifi general Andronikin Parisin "Per-Laşez" məzarlığındakı heykəlini Yerevan şəhərində David Sasunskiyə qoyulmuş abidə ilə müqayisə edir.*

*Hamıya məlum olduğu kimi, general Andronik təpədən-dırnağa qədər bolşevizmin düşməni, əks-inqilabi "Daşnaksütyun" partiyasının sayılıb-seçilən üzvü olmuşdur. ...Andronik İran-türk cəbhəsindən geri çəkilərkən 1918-ci ilin iyun-iyul aylarında Naxçıvan diyarında dinc əhalini didərgin salıb, qırıb-çatıb, talan edibdir. O, qadınları, uşaqları və qocaları da odlara yaxıb, qılıncdan keçiribdir.*

*Salınmış qanlı nifaq, Andronik tərəfindən 1918-ci ildə diyarın dinc əhalisinə qarşı törədilmiş fiziki cəhətdən məhv etmə halları haqqında mən bu ilin 28 yanvarında yazdığım məktubla "İzvestiya" qəzetinin redaksiyasını və Marietta Şaqinyanı məlumatlandırmışam. Lakin indiyə kimi onlardan heç bir cavab almamışam. Çox-çox təəssüf edirəm ki, əks-inqilabçı Andronikin mədh edilməsinə qarşı mənim bu etirazıma dair heç bir izahat verilməmişdir".*

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev 14 iyul 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik etdikdən sonra ölkəmizin digər regionlarından torpaqların itirilməsi prosesi tam dayandırıldığı kimi, Naxçıvan Muxtar Respublikasının da başının üstündən duman çəkilmişdir.

Sovet İttifaqının dağılması ərəfəsində, 1990-cı ilin yanvar ayında Azərbaycanı yenidən bürümüş erməni-bolşevik təcavüzünə və regiona olan hərbi müdaxilələrə cavab olaraq Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında Ali Sovetin qəbul etdiyi qərar beynəlxalq aləmdə böyük əks-səda doğurmuşdur. Və Sovet İttifaqı rəhbərliyindən məqsədli şəkildə uzaqlaşdırıldıqdan sonra Ulu Öndər Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi ilə Naxçıvanın muxtariyyət statusu məsələsinə yenidən baxılmış, nəhayət, sosialist idarəetmə forması bu dövlət idarəçiliyi qurumunun üzərindən götürülmüşdür.

Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli sessiyasında Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı Heydər Əliyevin təşəbbüsü ilə bu regional dövlət qurumunun adından "sovet sosialist" sözləri çıxarılmış, Ali Sovetin adı dəyişdirilərək Ali Məclis adlandırılmışdır. Eyni zamanda, həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzlərindən biri kimi qəbul edilməsi haqqında qərar çıxarılmışdır. SSRİ-nin dağılmasından 11 ay əvvəl baş vermiş bu hadisələr Sovet İttifaqının çökməsinə təkan vermiş, ölkəmizdə milli azadlıq hərəkatının genişləndirilməsində mühüm rol oynamışdır. Bu yola Naxçıvan Muxtar Respublikası SSRİ-nin dağılmasından əvvəl özünün müstəqilliyini elan etməyə doğru ciddi siyasi gedişlər etməyə nail olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1991-ci ilin sentyabr ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işləməsi sayəsində muxtar respublika erməni işğalından xilas edilmiş, burada müstəqil dövlətçilik üçün zəruri olan mühüm islahatlar qətiyyətlə həyata keçirilmişdir. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə təsərrüfat idarəetmə strukturları olan kolxoz və sovxozların ləğv edilməsi, torpaq islahatlarının həyata keçirilməsi, regionda milli ordu hissələrinin təşkili, Türkiyə ilə sərhəddə Araz çayı üzərində "Ümid körpüsü"nün salınması, Yeni Azərbaycan Partiyasının yaradılması gənclərin Türkiyə Cümhuriyyətinin universitetlərində təhsil almaq üçün göndərilməsi, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis olunması və sair mühüm tədbirlər nəinki muxtar respublikada, ümumən Azərbaycan miqyasında yeni siyasi-iqtisadi və mədəni mühitin formalaşdırılması və inkişaf etdirilməsi baxımından əhəmiyyətli hadisələrə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası müstəqillik illərindən böyük sürətlə inkişaf etməkdədir. Fəaliyyətini görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun ardıcıl və məqsədyönlü rəhbərliyi ilə muxtar respublika bütün istiqamətlər üzrə, hərtərəfli şəkildə irəliyə doğru böyük sürətlə addımlamaqda davam edir.

Rəqabətədavamlı sosial-iqtisadi inkişafın nəticələrinə görə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın iqtisadi rayonları arasında birinci yeri tutması buradakı yüksəlişin vüsəti haqqında aydın təsəvvür əldə etməyə imkan yaradır. Naxçıvan Muxtar Respublikası son 25 il ərzində aqrar sahəni bütün istiqamətlər üzrə inkişaf etdirməklə ilə yanaşı, həm də müasir sənaye regionuna çevrilmişdir. Əsas kənd təsərrüfatı və sənaye məhsulları ilə muxtar respublika əhalisinin təmin edilməsi ilə bərabər, yaxın və uzaq xarici ölkələrə mineral su, duz, mərmər, sement, bağ və bostan məhsullarının emal sənayesi mallarının ixrac olunması, Naxçıvan Muxtar Respublikasındakı dinamik surətdə inkişaf edən sosial-iqtisadi həyatın reallıqlarıdır. Müasir tipli şəhərsalma mədəniyyətinin formalaşdırılması, kənd mərkəzlərinin salınması, yüksək keyfiyyətə malik yolların çəkilməsi, nümunəvi sənaye zonalarının yaradılması, məktəb tikintisi baxımından da Naxçıvan təcrübəsi əsl nümunə hesab oluna bilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun düşünülmüş siyasəti nəticəsində muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin elm, ali təhsil və mədəniyyət mərkəzinə çevrilməsi, burada hərtərəfli şəkildə inkişaf etmiş universitet şəhərciyinin salınması ölkəmizin yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmasına və ziyalı potensialının artırılmasına Naxçıvan məktəbinin daha çox fayda verməsinə şərait yaradır. Naxçıvan Dövlət Universitetinin beynəlxalq aləmdə tanınması, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin ölkə elmi mühitində xüsusi çəkiyə malik olması, Naxçıvan Universitetinin maddi-texniki bazasının inkişaf etdirilməsi və müasirləşdirilməsi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət musiqili Dram Teatrının səmərəli fəaliyyəti regionda yüksək elmi-mədəni inkişafın təmin olunmasına gur işıq salır. Son illərdə Naxçıvan şəhəri İslam Mədəniyyətinin paytaxtı, Avropa Gənclər paytaxtı missiyalarını da şərəflə yerinə yetirmişdir.

Hazırda Naxçıvan şəhərində min nəfərə yaxın adamın ibadət etməsinə şərait yaradan möhtəşəm məscid kompleksi tikintisində tamamlanma işlərinin aparılması regionda dini-mənəvi dəyərlərin inkişaf etdirilməsinə öz töhfələrini verəcəkdir. Naxçıvan şəhərinin tərkibində Gənclər şəhərciyinin salınması burada yeni nəsillərin yaşayıb-işləməsinə, qurub-yaratmasına təminat verir. Ağbulaq Qış Xizək Mərkəzinin açılışa hazırlanması Naxçıvanın dünya turizminin cəlbedici mərkəzlərindən birinə çevrilməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə uzun illərdən bəri çətin blokada şəraitində yaşamaqda davam edən Naxçıvan Muxtar Respublikasının dəmir yolu nəqliyyatının bərpa edilməsinə dair razılaşdırmanın əldə olunması, bu regionu Azərbaycanın digər rayonları ilə əlaqələndirən yeni avtomobil yolunun çəkilməsinin planlaşdırılması qədim diyarın müasir inkişafında xüsusi əhəmiyyətə malik olacaqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun Qars-İqdır-Sədərək-Şərur magistralı vasitəsilə Naxçıvana birləşdirilməsi muxtar respublikanın hərtərəfli inkişafına yeni nəfəs gətirəcək mühüm hadisədir. Ümumiyyətlə, yaradılması çox da uzaqda olmayan Naxçıvan nəqliyyat dəhlizi ilə Naxçıvan Muxtar Respublikası müasir dövrün əsas tranzit mərkəzlərindən birinə çevrilə bilər. Naxçıvan nəqliyyat dəhlizinin Türkiyə vasitəsilə Avropaya, İran yolu ilə Asiyaya, Bakıdan keçməklə Rusiyaya doğru genişləndirilməsi regionun, daha böyük inkişafına start vermək deməkdir.

Bütün bunlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının bugünkü müasir intibah mərhələsinin yeni üfüqlərə doğru daha da inkişaf etdirilməsinə tam təminat verir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil dövlətçilik ideyalarını məsuliyyətlə və şərəflə həyata keçirən qədim və həmişəcavan diyar Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri Vasif Talıbovun rəhbərliyi ilə müasir inkişafın əsl nümunələrini təqdim etməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi yeni inkişaf strategiyasının işığında Naxçıvan Muxtar Respublikasında dövlət qayğısı və fədakar zəhmət sayəsində qazanılan nailiyyətlər müasir dövrün möhtəşəm hesabatı olmaqla bərabər, həm də gələcək daha böyük inkişafın reallıqlarını müəyyən edir.

Naxçıvan Muxtar Respublikası özünün qarşıdakı yüz illiyinə doğru qətiyyətlə addımlayır.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***



# Qarabağın iki beynəlxalq hava limanı Azərbaycanın nəqliyyat infrastrukturunu daha da zənginləşdirəcək

### Onların biri Füzulidə inşa edilir, digərinin yeri aprel ayında müəyyən olunacaq

*Əvvəli 1-ci səh.*

Uçuş-enmə zolağının uzunluğu 3000 metr olacaq bu hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.

Hazırda minalardan təmizlənən ərazilərdə uçuş-enmə zolağının özülünün hazırlanması üçün torpaq yatağının çıxarılması işləri həyata keçirilir. Uçuş-enmə zolağının işıq-siqnal sistemləri, eləcə də radionaviqasiya və meteoroloji avadanlıqlarla təchiz edilməsi üçün xarici şirkətlərlə müqavilələr bağlanıb.

Layihəyə bir sıra obyektlərin, o cümlədən aerovağzalın (terminal), uçuş-enmə zolağının, perronun, yönəldici yolun inşası, uçuş-enmə zolağının işıq-siqnal sistemlərinin, aeronaviqasiya və meteoroloji avadanlıqların quraşdırılması, transformator yarımstansiyalarının, köməkçi binaların, qurğuların tikintisi, elektrik, qaz, su və rabitə kommunikasiyalarının çəkilişi daxildir.

Hava limanının aerodrom ərazisinin 250 min kvadratmetr sahəsinin minalardan təmizlənməsi ilə bağlı xarici ölkələrdən dəvət olunmuş mütəxəssislər tərəfindən tədbirlər həyata keçirilir. Ərazinin minalardan təmizlənməsinin sürətləndirilməsi üçün İngiltərə istehsalı olan, ərazini minalardan zərərsizləşdirən unikal "AARDVARK" modelli mexanizm alınıb və əraziyə gətirilərək işə salınıb. Uzunluğu 3000, eni 45 metr olan asfalt-beton örtüklü uçuş-enmə zolağının tikintisinə peşəkarlığı ilə seçilən və müasir texniki bazaya malik "AzVirt" şirkəti cəlb olunub.

Layihəyə əsasən, Füzuli 110/35/10 kilovoltluq yarımstansiyasından buraya 6 kilometr 10 kV-luq xarici, 4 kilometr 10 kV-luq daxili elektrik xəttinin, işıq-siqnal sisteminin quraşdırılması üçün 130 kilometr elektrik kabel xətlərinin, digər xarici və daxili mühəndis şəbəkəsinin çəkilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin tapşırığına əsasən, uçuş-enmə zolağının istismara verilməsi cari ilin sonunadək həyata keçiriləcək. Aeroportun tikinti işlərinin isə gələn ilin aprel-may aylarında yekunlaşdırılması nəzərdə tutulur.

İşğaldan azad olunmuş ərazilərdə daha bir aeroport olacaq. Bunun Kəlbəcər və Laçın rayonlarından birinin ərazisində tikilməsi planlaşdırılır. Hazırda hava limanının yerini müəyyən etmək üçün araşdırmalar aparılır. Sözügedən bölgələrin coğrafi şəraiti bu məsələnin həlli üçün bir qədər mürəkkəbdir, yəni ərazilərin mütləq əksəriyyəti dağlıqdır. Orada düz yer tapmaq çətindir. Odur ki, uçuşların təhlükəsizliyi baxımından burada olduqca geniş araşdırma işləri aparmaq lazım gəlir. Beləliklə, yaxın gələcəkdə Laçın, yaxud Kəlbəcər rayonunda da yeni beynəlxalq hava limanı tikiləcək. Bu aeroport da beynəlxalq standartlara cavab verəcək. Hava limanının tikiləcəyi yer cari il aprel ayının sonunadək müəyyən olunacaq.

İki beynəlxalq aeroport Qarabağ zonasında genişmiqyaslı bərpa işlərinin aparılmasında, yüklərin daşınmasında, turizmin inkişafında ölkəyə böyük kömək göstərəcək. Bunun öz yurd-yuvasına qayıdan insanların rahatlığı üçün də böyük əhəmiyyəti olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Gədəbəyin turizm potensialı haqqında internet saytı yaradılıb




*Ölkəmizin qərb bölgəsində, Kiçik Qafqaz sıra dağlarının qoynunda yerləşən Gədəbəy əsrarəngiz təbiəti ilə hər kəsi valeh edir.*

Yayda yaşıl örtüyə bürünən yaylaqlar, geniş çəmənliklər, sıx meşələr, dağların zirvəsindən yamaclar boyunca axan kiçik çaylar, şəlalələr, göllər, qayalar arasından süzülüb axan buz bulaqlar, həmçinin qədim və zəngin tarixi abidələr Gədəbəyi yerli və xarici turistlər üçün əvəzolunmaz məkana çevirmişdir.

Gədəbəydə həmçinin 500-dən çox tarixi abidə, qala və qalaçalar da var ki, onlardan 106-sı qeydiyyata alınmışdır. Rayonun Söyüdlü kəndindəki Böyük Qalaça (eramızdan əvvəl II-I minilliyə aid Tunc-ilk Dəmir dövrü), Qız qalası (IX əsr ölkə əhəmiyyətli memarlıq abidəsi), Mahrasa kompleksi (atəşpərəstlik dövrünün memarlıq nümunələri), Koroğlu qalası (XVI əsr ölkə əhəmiyyətli memarlıq abidəsi), Simens körpüsü (XIX əsrin 60-cı illərinə aid tikili), Böyük Qaramurad kəndi ərazisində yerli əhəmiyyətli Alban tarixi memarlıq abidəsi (1634-cü il), Novosaratovka kəndindəki yerli əhəmiyyətli Alban tarixi memarlıq abidəsi (1535-ci il) bu yerlərin qədimliyindən xəbər verir.

Bundan başqa, 26 adda mineral suların, 100-dən çox təbii müalicəvi bitkilərin, sıx meşə massivlərinin olması rayonun füsunkar turizm imkanlarının əyani nümunələrindəndir.

İndi bütün bunlar haqqında rayonun turizm potensialını, o cümlədən tarix və mədəniyyət abidələrinin təbliği məqsədilə yaradılmış **http://visitgadabay.az/** internet saytından məlumat almaq mümkündür. Saytda həmçinin rayonda fəaliyyət göstərən istirahət mərkəzləri, milli yeməklər, keçirilmiş tədbirlər, milli adət-ənənələrimiz və gəzməli-görməli yerləri haqqında ətraflı məlumatlar verilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## Biz birlikdə güclüyük!

# 65 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılıb

Əvvəli 1-ci səh.



Ölkədə Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CORONOVAC" vaksinindən istifadə olunur.

Ötən gündən isə 65 yaşdan yuxarı şəxslərin COVID-19 infeksiyasına qarşı vaksinasiya prosesinə başlanılıb. Bu kateqoriyadan olan şəxslər randevu.its.gov.az saytından və ya ərazi üzrə poliklinikanın qeydiyyat şöbəsi ilə telefon əlaqəsi saxlayıb öz məlumatlarını verərək qeydiyyatdan keçə bilərlər. Saytdan qeydiyyatdan keçən hər bir vətəndaşa SMS-lə məlumat göndəriləcək. Poliklinikaya müraciət zamanı isə həmin şəxslər qeydiyyatdan keçirilərək onlara məntəqəyə gəlməli olduğu gün və dəqiq vaxt bildiriləcək. Qeyd edək ki, ölkədə yaşı 65-dən yuxarı olan təqribən 700 000 vətəndaş var.

Vaksinasiyanın ikinci mərhələsində isə tibbi yüksəkriskli olanlar (tənəffüs sistemi, hemodializ, şəkərli diabet, piylənmə kimi xroniki xəstəlikləri olanlar), 50 yaş və daha yuxarı, ən azı bir xroniki xəstəliyi olan şəxslər, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət" və DOST mərkəzlərin, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorların və provayderlərinin və poçt sahəsində birbaşa əhali ilə təmasda olan işçilərin və bank sektorunun birbaşa əhali ilə təmasda olan əməkdaşları, yüksək riskli şəraitli işlərdə (cəmiyyətin fəaliyyəti üçün həyati vacib sahələrdə çalışan və əhəmiyyətli dərəcədə daha yüksəkriskli sahələrdə çalışan - milli və regional təhlükəsizlik, ədliyyə, maliyyə və s.) çalışan şəxslər peyvənd olunacaqlar.

Koronavirusa yoluxmuş şəxslərin peyvənd olunmasının nəzərdə tutulub-tutulmayacağı ilə bağlı yaranan suallara TƏBİB aydınlıq gətirərək bildirib ki, bu şəxslər ilkin mərhələdə risk qrupu hesab edilmir. 6 aydan sonra tibbi cəhətdən qandakı anticisimlərin zəiflədiyi nəzərə alınaraq, vətəndaş vaksinasiya strategiyasında nəzərdə tutulan risk qrupuna aiddirsə, peyvənd oluna bilər.

Vurğulayaq ki, vətənimizdə koronavirusa qarşı əldə olunan müsbət tendensiya sərt karantin rejiminin tədricən yumşaldılmasına da şərait yaradıb. Ötən gündən etibarən regionlarda yuxarı sinif şagirdləri üçün ənənəvi dərslər bərpa olunub. Təhsil Nazirliyindən verilən məlumata görə, fevralın 8-dən Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla, ölkənin digər şəhər və rayonlarında yerləşən, layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verən ümumi təhsil müəssisələrində tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla əyani təhsilə cəlb olunub. Layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki məsafəni gözləməyə imkan verməyən ümumi təhsil müəssisələrində isə tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 3 dəfə olmaqla həyata keçiriləcək. Nazirliyin tabeliyində fəaliyyət göstərən müstəqil tədris binası və əlverişli maddi-texniki bazası dərnək üzvləri arasında fiziki məsafəni gözləməyə imkan verən uşaq-gənclər inkişaf mərkəzlərində aşağı yaş qruplarında (I-IV siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla ənənəvi formada keçiriləcək.

Yoluxma səviyyəsi nəzərə alınaraq qarşıdakı müddətdə təhsil sahəsində daha çox açılmalara gediləcəyi də istina olunmur.

Yeri gəlmişkən bildirək ki, Azərbaycanda indiyədək ümumilikdə 230 mindən çox şəxs koronavirus infeksiyasına yoluxub ki, onlardan 224 mindən çoxu müalicə olunaraq sağalıb.

Ölkə üzrə COVID-19-a yoluxma statistikasına əsasən, respublikamızda koronavirusa yoluxanların 52,2 faizi Bakı şəhərinin payına düşür. İkinci ən çox yoluxma Aran zonasındadır. Bu ərazidə yoluxma 13,3 faizə çıxıb. Abşeron rayonu yoluxmaya görə 12,9 faizlə 3-cü yerdə, Gəncə-Qazax zonası isə 8,1 faiz yoluxma ilə 4-cü yerdədir. 3,0 faiz yoluxma Quba-Xaçmaz, 3,2 Şəki-Zaqatala rayonları, 2,9 faizi Lənkəran rayonu, 1,4 faizi Yuxarı Qarabağ bölgəsi, 2,5 faizi isə Dağlıq Şirvan ərazilərində qeydə alınıb. Naxçıvanda isə son statistikaya görə, koronavirusa yoluxma halı 0,005 faiz qeydə alınıb.




Bakının rayonları üzrə koronavirusa ən yüksək yoluxma Binəqədi rayonunda olub. Belə ki, adıçəkilən rayonda virusa yoluxma 15.1 faiz, Xətaidə 13.1 faiz, Yasamalda 12.2 faiz, Sabunçuda 10.8 faiz, Suraxanıda 8.2 faiz, Nərimanovda 8.1 faiz, Nəsimidə 7.8 faiz, Nizamidə 7.0 faiz, Xəzərdə 6.9 faiz, Qaradağda 5.3 faiz, Səbaildə 5.0 faiz, Pirallahıda 0.5 faiz təşkil edib.

Ölkədə koronavirusa yoluxanların 21 faizi 50-59 yaş arasında, 18 faizi isə 30-39 yaş arasında olan şəxslərdir. Yoluxanların 5 faizini 0-9 yaş, 2 faizini isə 80 yaşdan yuxarı şəxslər təşkil edir. Yoluxanların 54 faizi qadın, 46 faizi isə kişilərdir.

Azərbaycanda qlobal pandemiyaya qarşı hərtərəfl mübarizə aparılır və görülən tədbirlər sayəsində bu infeksiyaya yoluxma halları xeyli azalıb. Amma unutmaq olmaz ki, COVID-19-u təhlükəli edən xüsusiyyət sürətli yayılması və birdən min törətməsidir. Buna görə də, tədbirli olaraq təhlükəyə qarşı mübarizəni davam etdirməliyik ki, ölkəmizdə bir dənə də olsa koronavirusa yoluxma halı qeydə alınmasın.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondu 18 yaşadək olan şəkərli diabet xəstələrini insulinlə təmin edir





Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər növbəti dəfə insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir.

Əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edən Heydər Əliyev Fondu 2004-cü ilin dekabrından etibarən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsini həyata keçirir.

Layihə üzrə şəkərli diabetdən əziyyət çəkən şəxslərə dövlət tərəfindən göstərilən qayğıya dəstək məqsədilə uşaq və yeniyetmələr müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Diabet Cəmiyyətinin sədri Mömünət Ömərova bu il dünyada diabet cəmiyyətlərinin insulinin kəşf olunmasının 100 illiyini qeyd edəcəyini bildirib: "İnsulinin 1 əsrdir mövcud olmasına baxmayaraq, dünyada insulinlə təminatın lazımi səviyyədə olduğunu demək mümkün deyil. Bu nöqteyi-nəzərdən ölkəmizdə uşaqların ən keyfiyyətli "Tresiba" insulini ilə təmin olunması çox böyük əhəmiyyət kəsb edir. Beynəlxalq Diabet Federasiyasının devizi "Diabetli insanların həyat keyfiyyətinin" yaxşılaşdırılması"dır. Bu layihə çərçivəsində son bir il ərzində 1500-ə yaxın uşağın həyat keyfiyyəti yaxşılaşdı. "Tresiba" qanda insulinin miqdarının kəskin düşməsini, yəni hipoqlikemiyanın baş verməsinin qarşısını almağa kömək edir. Uşaqların "Tresiba" insulini ilə təminatı Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir. Bununla yanaşı, layihənin icrası Beynəlxalq Diabet Federasiyasının devizinin həyata keçirilməsi deməkdir. Layihə çərçivəsində insulinlə təminatla yanaşı, həm valideynlər, həm də uşaqlar diabet haqqında, özlərinə necə nəzarət etməli olduqları barədə biliklər əldə etdilər. Bu layihə Heydər Əliyev Fondunun diabetlə bağlı həyata keçirdiyi ilk layihə deyil. Azərbaycanda ilk dəfə uşaqlar insulin üçün şpris qələmlərlə Heydər Əliyev Fondu tərəfindən təmin olunublar. Bütün diabetli uşaqlar, onların valideynləri, Azərbaycan Diabet Cəmiyyətinin adından Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm".



Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Terapiya kafedrasının müdiri, Azərbaycan Endokrinologiya, Diabetalogiya və Terapevtik Təlimat Assosiasiyasının sədri, tibb elmləri doktoru Valeh Mirzəzadə bütün xəstələrin onlarda şəkərli diabet olduğunu bilmədiklərini, lakin uşaqlarda olan şəkərli diabetin daha böyük problem olduğunu qeyd edib: "İnsulin kəşf olunmamışdan əvvəl 10 yaşadək uşaqlarda şəkərli diabet tapılırdısa, onlar bir ildən artıq yaşamırdı. Tətbiq olunan pəhriz isə iki il yaşamaq imkanı yaradırdı. İnsulin kəşf olunandan sonra isə uşaqların yaşama ehtimalı artdı. Dünyada 95 il yaşayan bəzi insanların 85 il insulinlə yaşadığı məlum olub. İnsulin insana fəsadsız və uzun yaşamağa kömək edir. Fəsadsız yaşamaq üçün qanda olan qlükozanın idarə edilməsi də vacibdir. Onu da insulinlə idarə etmək mümkündür. Uşaqlarda kəskin insulin çatışmazlığı yarana bilir. Onlarda qanda insulin ya heç olmur, ya da cüzi miqdarda aşkarlanır. Həmin uşaqların insulinlə təminatı vacibdir. Qısamüddətli və uzunmüddətli insulin mövcuddur. Qısamüddətli insulin yeməklər üçün istifadə olunur, uzunmüddətli isə bütün sutka boyu qanda insulinin yetəri səviyyədə olmasına kömək edir. Heydər Əliyev Fondu imkan yaradıb ki, ölkəmizdə şəkərli diabetdən əziyyət çəkən uşaqları ən yeni və ciddi yoxlamadan keçən uzunmüddətli insulinlə təmin olunsunlar. Həmin insulinlər sutka və gecə ərzində hipoqlikemik vəziyyətlərin başvermə ehtimalını azaldır. Qeyd edim ki, qanda qlükozanın miqdarının kəskin düşməsi ölümlə və ağır fəsadlarla nəticələnə bilər. Belə halların baş verməsinin qarşısını almaq üçün uşaqların yeni uzunmüddətli insulinlə təminatına görə Heydər Əliyev Fonduna minnətdarlığımızı bildiririk".

# ABŞ-İran qarşıdurması həssas mərhələdədir

## Tərəflər gərginliyi aradan qaldırmaq üçün ilk addımı atmağa tələsmir

ABŞ-ın yenicə fəaliyyətə başlamış 46-cı Prezidenti Co Baydenin hər qərarı, hər bəyanatı dünya ictimaiyyətinin dərhal diqqət mərkəzinə düşür. Bu da səbəbsiz deyil. Eksprezident Donald Trampın administrasiyası yeni dövlət başçısına xüsusilə xarici siyasət sahəsində ağır miras qoyub getmişdir. Tramp dördillik hakimiyyəti dövründə böyük səylər hesabına qurulmuş strateji alyansları və münasibətləri dağıdaraq bir çox körpüləri yandırmışdır. O həm düşmənlə, həm də dostla yalnız sanksiya dilində danışırdı.



Baydenin Ağ Evdə qəbul etdiyi ilk qərarlar göstərir ki, yeni Prezidentin əsas xarici siyasət silahı ikitərəfli və çoxtərəfli dialoq olacaq. O, bu istiqamətdə ilk addımlarını da atmışdır. ABŞ lideri Paris iqlim sazişinə qayıdacağını bəyan etmiş, ölkəsinin Ümumdünya Səhiyyə Təşkilatından çıxması prosedurunu dayandırmış və Meksika ilə sərhəddə divarın inşasının hüquqi əsaslarını ləğv etmişdir.

Eyni zamanda Bayden ABŞ-ın miqrasiya siyasətinə yenidən baxmağı qərarlaşdırmışdır. O, sələfinin miqrasiya siyasətini "mənəvi və milli biabırçılıq" kimi qiymətləndirirdi. Bayden bu sahədə vəziyyəti dəyişdirmək üçün ilk addım kimi sərhədi qanunsuz keçərkən tutulan miqrantların ailələrinin birləşdirilməsi ilə bağlı işçi qrupu yaradıldığını elan etmişdir. Trampın dövründə belə miqrantları övladlarından ayırmaq praktikası tətbiq olunmuşdu ki, bu da həm ölkə daxilində, həm də xaricdə sərt tənqidə məruz qalırdı. Həmçinin Bayden administrasiyası miqrantların ABŞ vətəndaşlığı almasını asanlaşdırmaq niyyətindədir.

ABŞ-İran münasibətlərinin gərginləşməsi Tramp administrasiyasının yürütdüyü xarici siyasət xəttinin acı bəhrələrindəndir. Məlum olduğu kimi, İranın nüvə proqramı və Tehranın nüvə silahı əldə etmək ehtimalı həmişə Qərb dövlətlərini narahat edirdi, hərçənd İran rəhbərliyi nüvə proqramının sırf dinc xarakter daşıdığını təkrar-təkrar vurğulayırdı. Uzun sürən danışıqlardan sonra 2015-ci ildə İranla altı beynəlxalq vasitəçi - ABŞ, Rusiya, Çin, Böyük Britaniya, Fransa və Almaniya arasında Birgə Hərtərəfli Fəaliyyət Planı (BHFP) imzalanmışdır. BHFP-yə uyğun olaraq, İran məruz qaldığı beynəlxalq sanksiyaların ləğv olunması müqabilində milli nüvə proqramını məhdudlaşdırmaq naminə bir sıra addımlar atmağı öhdəsinə götürmüşdür.

Sözügedən sazişin bağlanması beynəlxalq münasibətlər sistemində gərginliyin azalması kimi qiymətləndirilirdi. Belə ki, İran dünya iqtisadiyyatına qayıtmaq, Qərb dövlətləri isə Tehranla qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək imkanı əldə edirdi.

Lakin Tramp hakimiyyətə gəlişi ilə dirçəlməkdə olan İran-Qərb münasibətlərini darmadağın etdi. O, 2018-ci il mayın 8-də ABŞ-ın BHFP-dən birtərəfli qaydada çıxdığını elan etdi və Vaşinqtonun İrana qarşı ləğv etdiyi sanksiyaların bərpasına start verdi. Bundan bir il sonra İran BHFP çərçivəsində üzərinə götürdüyü öhdəliklərdən geri çəkilməyə başladı. Vaşinqton açıq-aşkar bəyan edirdi ki, qarşıya qoyduğu vəzifə İranın neft ixracını sıfırlamaq, bütövlükdə bu ölkənin iqtisadiyyatını çökdürmək idi. ABŞ İranla əməkdaşlıq edən ölkələrə ağır sanksiyalar vəd edirdi. BHFP-ni imzalamış digər ölkələr sazişdən çıxmasa da, Vaşinqtonun sərt reaksiyasından ehtiyatlanaraq onu qoruyub saxlamaq naminə ciddi addımlar atmaqdan çəkinirdi. Ötən müddət ərzində ABŞ Tehranı diz çökdürə bilməsə də, İran iqtisadiyyatı xeyli zərər çəkdi. Bu üzdən ABŞ-ın avropalı müttəfiqləri ilə münasibətləri də əhəmiyyətli dərəcədə pozuldu.

